Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Samir Tağıyevin 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizəd Eyvazov Elnur Zakir oğlunun Mərkəzi Seçki Komissiyasına 24 sentyabr 2015-ci il tarixli 08 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 26 sentyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Samir Tağıyev 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 40 saylı Kəpəz II (Gəncə) seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Eyvazov Elnur Zakir oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 sentyabr 2015-ci il tarixli 08 saylı yazılı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 40 saylı Kəpəz II (Gəncə) seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Eyvazov Elnur Zakir oğlu 2015-ci il sentyabrın 24-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmişdir.

Araşdırma prosesində müəyyən edilmişir ki, E.Z.Eyvazovun namizəd

kimi qeydə alınması üçün dairə seçki komissiyasına təqdim etdiyi imza vərəqələrində olan seçici imzaları Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Belə ki, namizəd tərəfindən toplanılmış 493 seçici imzasından 466 imza etibarlı hesab edilmişdir ki, bu da namizədin qeydə alınması üçün kifayət edir.

Tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma nəticəsində müəyyən edilmişdir ki, 40 saylı Kəpəz II (Gəncə) seçki dairəsi dairə seçki komissiyasının namizədliyin qeydə alınmasından imtina edilməsi barədə 23 sentyabr 2015-ci il tarixli 13/35 saylı qərarı əsassızdır.

Göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, 40 saylı Kəpəz II (Gəncə) seçki dairəsi dairə seçki komissiyasının Eyvazov Elnur Zakir oğlunun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 23 sentyabr 2015-ci il tarixli 13/35 saylı qərarı ləğv edilməli və o, həmin seçki dairəsindən namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. Deputatlığa namizəd Eyvazov Elnur Zakir oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 sentyabr 2015-ci il tarixli 08 saylı müraciəti təmin edilsin və 40 saylı Kəpəz II (Gəncə) seçki dairəsi dairə seçki komissiyasının 23 sentyabr 2015-ci il tarixli 13/35 saylı qərarı ləğv edilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Samir Tağıyev